BAKI DÖVLƏT UNİVERSİTETİ
İLAHİYYAT FAKÜLTƏSİNİN

# ELMİ
# MƏCMUƏSİ

№ 08 (17) SENTYABR (EYLÜL) 2007

# ERKƏN HÜQUQ SİSTEMİNİN QISA TARİXÇƏSİ

*Mirzəyeva Səbinə Həmid qızı*

Klassik islam hüquq nəzəriyyəsinə görə, islam hüquq elminin (fiqhin) əsasları fiqh elminin aparıcı prinsiplərinin sistemləşdirilməsindən dərhal sonra yox, daha sonralar VIII-IX əsrlərdə işlənib hazırlanmışdır. Lakin müsəlmanların ilkin nəslinin belə əsaslara ehtiyacı yox idi. Hz.Peyğəmbər əlehyissəlam ilkin müsəlmanlara onlar üçün zəruri olan ictimai davranış normalarını ilahi vəhyə əsaslanaraq özü şəxsən öyrədir, onun səhabələri, tabiilər və onların ardınca gələnlər (və mən təbiəhum) isə belə norma və qaydaları arayaraq hər şeydən əvvəl, Qurana və Sünnəyə müraciət edirdilər. İslam qanunvericiliyinin bu iki başlıca qaynağında tutarlı cavab (qətiyyət əd-dələlə) tampadığı hallarda, Hz.Peybəmbərin (ə.s) təfəkkür və həyat tərzi ilə yaxından tanış olan din alimlərinin müştərək rəyinə (icma) əsaslanırdılar. Rəvayətə görə, Hz.Peyğəmbər(ə.s) Müaz bin Cəbəli Yəmənə canişin göndərməzdən qabaq onu yanına çağırtdırmış və soruşmuşdu: «Əgər hökm verməli olsan nəyə əsaslanarsan?» O, cavabında demişdi: Allahın Kitabına. Əgər orada cavab tapmasan? Onda Peyğəmbərin sünnəsinə. Orada da cavab tapmasan? Öz rəyimə əsaslanaram. Müaz bin Cəbəlin cavabını Hz.Peyğəmbər (ə.s) bəyənmiş və yaşının az olduğuna baxmayaraq onu Yəmənə canişin təyin etmişdi.[1] Lakin islam hüquq təliminə görə, Hz.Peyğəmbərin (ə.s) səhabələrinin və tabiilərin ilk nəslinin həyatdan getməsi ilə hüquq normalarının Quran və Sünnə əsasında ciddi şəkildə işlənib hazırlanması ehtiyacı meydana çıxmış oldu. Bu ehtiyac hər şeydən əvvəl onunla bağlı idi ki, müsəlman hüquqşünaslarının yeni nəsillərinin Hz.Peyğəmbərlə (ə.s) birbaşa əlaqəsi qırılmış və islamın başlıca uhkamları haqqında onlar öz sələflərinin malik olduğu dərin biliklərə malik deyildilər. Bundan başqa, yeni-yeni məmləkətlərin Ərəb

[1] İbn Səəd. Ət-Təbəqat əl-kübra. I-IX, Beyrut, 1978.

xilafətinə qoşulması, islamın fəth edilmiş ərazilərin öz xüsusi hüquq ənənələrinə malik olan xalqları arasında yayılması, müsəlman hüquqşünaslarını müsəlmanların ilk nəslinə məlum olmayan yeni hüquqi problemlərin həll edilməsi zərurəti ilə qarşı-qarşıya qoymuşdu və təbii ki, bu məsələlər Quranda və Sünnədə bilavasitə öz əksini tapmamışdı. Hüquqşünaslar tərəfindən belə məsələlərin həlli yollarının sərbəst şəkildə axtarılması halları bu məsələlərin həllində ciddi fərqlərin meydana gəlməsinə gətirib çıxarırdı. Özü-özlüyündə təhlükəli olmayan bu fərqlər Şəriətin aparıcı prinsiplərindən müsəlmanların uzaqlaşmasına gətirib çıxara bilərdi. Lakin, indi həmin məsələlərin hüquqşünaslar tərəfindən anlaşılması onların ciddi səhvlər buraxmamasına zəmanət vermirdi. Bütün bunlar islam qanunvericiliyinin ilkin qaynaqlarından fiqh normalarının seçilib götürülməsinin qaydalarını işləyib hazırlamağa güclü təkan vermiş oldu ki, bu da «üsul əl-fiqh» (fiqhin əsasları) konsepsiyasının meydana gəlməsini şərtləndirmiş oldu. Xronoloji cəhətdən bu VIII əsrin ortalarına təsadüf edir. [2]

Müsəlman hüquqşünasları arasında qəbul olunmuş nöqteyi-nəzərə görə, təxminən VIII əsrin ikinci yarısında fiqhin aparıcı prinsiplərinin işlənib hazırlanması metodlarına bir-birindən fərqlənən iki münasibət formalaşmışdı. Bu məktəblərin birincisinin nümayəndələri Hz. Peyğəmbərin (ə.s) sünnəsinə daha çox əsaslanmağa çalışırdılar. İkinci məktəbin nümayəndədəri isə fiqh məsələlərini birinci məktəbin nümayəndələrinə nisbətən daha çox rasional təfəkkür mövqeyindən şərh etməyə üstünlük verirdilər. Belə hesab olunur ki, VIII əsrin sonlarında və IX əsrin əvvəllərində yuxarıda qeyd olunmuş məktəblər çərçivəsində əsas fiqh məzhəbləri meydana gəlmişdir[3].

Mühəmməd bin İdris əş-Şafiinin (v.820-ci ildə) «ər-Risalə» adlı əsərində «üsul əl-fiqh» nəzəriyyəsinin əsası qoyulmuş oldu. «Üsul əl-fiqh»in klassik konsepsiyası ilə geniş mənada fiqh elminin inkişafının sosial-normativ tənziminin islamın dini-etik prinsiplərinə əsaslanan sistemi yaranmış oldu. Fiqhin əsaslarının təşəkkülü proseində müxtəlif təmayüllər əməkdaşlıq edirdi. Hər şeydən əvvəl hüquq təcrübəsinin islam

---

[2] Ислам: енсиклопедическая словарь. М., 1991, 311 s.
[3] Ислам: енсиклопедическая словарь. М., 1991, 311 s.

mövqeyindən çıxış edərək sistemləşdirilməsi prosesi baş verməkdə idi. Doğrudur, VIII əsrin əvvəllərində burada hüquq sistemini tamamilə Şəriət prinsiplərinə tabe etmək səyi hələlik özünü o qədər də büruzə vermirdi. Müsəlmanların ilk hakimləri (qazilər) əsasən qərar və hökmləri özlərinin «rəyinə» əsasən, yerli adət-ənənələri (ürf) və hüquq sahəsində qazanılmış təcrübəni nəzərə almaqla verirdilər. Quranın hökmləri artıq qəbul olunmuş həyat təcrübəsinə uyğun gəldiyi dərəcədə nəzərə alınırdı.

VIII əsrin 20-30-cu illərindən etibarən hüquq sisteminin və hüquq fəaliyyətinin qanunilәşdirilməsi səyləri xüsusilə geniş vüsət aldı. Qazilər ən çox dini əhval-ruhiyyəli adamlar arasında seçilməyə başladı. Onlar nəinki hüquq sahəsində sırf islam prinsiplərini rəhbər tutmağa çalışır, həm də fəaliyyətdə olan hüquq normalarını, dini göstəriciləri nəzərə almağa çalışırdılar. Ənənəvi qayda-qanunlar və hökmlər dini göstəricilərə uyğun gəlmədiyi hallarda şəriətin ümumi məqsədləri ilə əsaslandırılmış qərarların xeyrinə onlardan imtina edilirdi. Bu mərhələni islam hüquq fikrinin ilk cərəyanının formalaşmasının-erkən islam hüquq məktəblərinin meydana gəlməsinin başlanğıcı kimi dəyərləndirmək mümkündür. Bu fəaliyyətin məğzini hüququn dinə, dini-etik ideallara tabe edilməsi təşkil edirdi. Bu məktəblərin mövcud hüquq norma və ənənəlrinə münasibəti hər şeydən əvvəl, Qurana olan tamamilə yeni münasibətlə seçilirdi. Onlar hüquqi qərarlarının qəbul edilməsi zamanı artıq sərbəst rəyə yox, Quranın konkret hökmlərinə əsaslanırdılar. Bu münasibət təkcə ailə-nikah məsələlərinə yox, islamın başlıca qaynaqlarında bilavasitə əks etdirilməmiş məsələlərinə də aid idi.[4] Müsəlman hüquqşünasları öz vəzifələrini bu ümumi dini etik təsəvvürləri öz rəyi əsasında şərh edərək, konkret hüquqi normalar təsis etməkdə görürdülər.

Lakin Quranın hökmlərini şərh edərkən erkən islam hüquq məktəbləri özlərinə tanış olan təcrübədən çıxış edirdilər. Buna görə də, onların hər birində öz hüquqi təlimi təşəkkül tapırdı. Bu təlimlərin hər birisinin əsasını fiqh məsələlərinin rəy əsasında həll edilməsi sahəsində toplanmış onun xüsusi təcrübəsi təşkil edirdi. Əsas etibarilə, hüquqi hökmlərdə rəyə əsaslanan hüquq ənənəlrinin və ideallaşdırılmış

---

4 Musa Mühəmməd Yusif. Əhkam əl-əhval əş-şəxsiyyə fi-l-fiqh l-islami, Qahirə, 1958;

praktikanın etiraf edilməsi və onların dərin nüfuzu «Sünnə» adı ilə tanınmış müxtəlif hüquq məktəblərinin mövqeləri arasında qarşılıqlı güzəşt prinsipinə əsaslanırdı. Erkən islam hüquq məktəblərinin təsəvvürlərinə VIII əsrin ortalarında meydana gəlmiş «Sünnənin və rəyin» xüsusi tərzdə anlaşılması qarşı dururdu. Onun mahiyyətini bu vaxta qədər ancaq siyasət və ilahiyyatçılıq baxımından əhəmiyyət daşıyan Hz. Peyğəmbər əleyhissəlamın sünnəsinin ayrı-ayrı prinsiplərini fiqh sahəsinə daxil etməkdən ibarət idi. Bu istiqamətdə İraq hüquqşünasları irəliyə doğru mühüm addımlar atmışdılar. Onlar erkən islam hüquq məktəblərinin ənənələrinə riayət edilməsi əvəzinə Hz.Peyğəmbərin deyim və əməllərinə riayət etmək ənənəsinin əsasını qoymuşdular. Hədislərdə təsbit olunmuş fiqh normalarını arayıb tapmaq tərəfdarlarının sayı xüsusilə də Mədinə hüquqşünasları arasında durmadan artmaqda idi. Onların baxışları erkən islam hüquq məktəblərinin mövqelərinin formalaşmasında əhəmiyyətli dərəcədə rol oynamışdır. Onlar eyni zamanda «rəyə» əsaslanan və həmin məktəblərin hüquq təlimlərinə daxil olmuş müstəqil qərarlara da mənfi münasibət bəsləyirdilər. Məlum olduğu kimi, bu məktəblərin hər birində «rəyin» öz formaları (məsələn, əl-qiyas və əl-istihsan) meydana gəlmişdi. Lakin rasional yolla formalaşmış nəticələrin əksəriyyəti hədis şəkli alaraq yayılırdı. Erkən hüquq məktəbləri tərəfindən fəal surətdə tətbiq edilən hüquqi məsələlərin rasional metodlarla həll edilməsi ənənəsi daha sonradan ictihad ənənəsinin əsasını təşkil etdi və «üsul əl-fiqh» konsepsiyası tərəfindən mühüm bir amil kimi qəbul edildi.

Erkən islam hüquq məktəbləri tərəfindən fiqh elminin inkişaf etdirilməsi, Hz.Peyğəmbərin (ə.s) sünnəsinin fiqh elminin universal qaynağı olduğunu etiraf etməklə yanaşı, həm də qanunauyğun olaraq üsul əl-fiqh elminin təşəkkül tapmasına gətirib çıxardı. Bu təlimin təşəkkülündə həlledici addımı əş-Şafii atmış oldu. Fiqh elminin nəzəriyyə və metodologiyasını işləyib hazırlamaqla və fiqh qaynaqları haqda zəngin məlumat vermək əş-Şafii fiqh elminin meydana gəlməsinə mühüm xidmət göstərdi.

əş-Şafii ardıcıl olaraq belə bir fikir yürüdürdü ki, Quran və hədislərdə müsəlman hüququnun bütün norma və göstəricilərini tapmaq mümkündr. Bu qaynaqlar bu və ya digər hüquqi məsələlərə aid cavabları

özündə əhatə edir, ya da bu cavabların rasional təfəkkür yolu ilə formalaşdırılması üçün nəzəri əsas verirlər. Onun fikrincə, hədislərin doğruluğunu heç Quran da şübhə altına ala bilməz. Quran Hz.Peyğəmbərin (ə.s) sünnəsinə zidd deyildir və onun ruhunda şərh edilməlidir. Bu o demək idi ki, hz.Peyğəmbər əleyhissəlamın vəfatından sonra söhbət fiqhin yeni formalarının işlənib hazırlanmasından yox, bu formaların qeyd olunmuş qaynaqlarda axtarılmasından gedə bilər. Eyni zamanda, əş-Şafii Sünnəyə uyğun gəlməyən hökmləri qəbul etməkdən imtina edirdi. Beləliklə, «üsul əl-fiqh» anlamı haqqında hər bir fiqh məzhəbində öz xüsusi təsəvvürləri formalaşmaqda idi. Fiqhin qaynaqlarının aşkar edilməsinə həsr olunmuş fundamental əsərlərdən Əbd əl-Malik əl-Cüveyninin «Əl-Bürhan», Əbu Hamid əl-Qəzalinin «Əl-Mustafa min ilm əl-üsul», Fəxr əd-Din ər-Razinin «Əl-Məhsul fi-l-üsul» Seyf əd-Din əl Amidinin «İhkam fi üsul əl-əhkam», Əbdullah bin Umər əl-Beyzavinin «Minhac əl-üsul ila ilm əl-üsul», Übeydüllah bin Məsudun «Tənqih əl-üsul», Tac əd-Din Əbd əl-Vəhhab bin Əlinin «Cəm əl-cəvami» və başqalarını göstərmək olar.

İslam hüquq elminin (fiqhin) formalaşması bir tərəfdən, faktik olaraq mövcud olan hüquqi və sosial davranış normalarının dini əhkamlara uyğunlaşdırılması, digər tərəfdən isə müsəlman icması daxilində ortaya çıxan mübahisəli məsələləri islam dini-etik normaları əsasında həll etmək zərurəti ilə şərtləndirilmişdi. Fiqh elminin formalaşması təxminən hədislərin toplanması (tədvin) və səhabələrin deyimlərinin cəm edilməsi ilə eyni zamanda baş vermişdir. Buna görə də, fiqh məsələlərinə həsr olunmuş ilk əsərlər (Zeyd bin əl-Həsənin «Məcmu əl-fiqh», Malik bin-Ənəsin «Əl-müvəttə», Əhməd bin Hənbəlin «Əl-Müsnəd» əsərləri) öz mahiyyəti və məzmunu etibarilə hüquq elminə dair tədqiqatlar yox, hədis topluları idi.[5] Hədislərin sistemləşdirilməsi Quran və Sünnənin rasional təfəkkür vasitəsilə dərk edilməsi zərurətini irəli atdı və beləliklə, fiqhin müstəqil elm sahəsi kimi inkişaf etməsinə rəvac vermiş oldu. VIII-IX əsrin birinci yarısında artıq fiqh elminin öz istilahları meydana gəlməkdə, səciyyəvi dini və metodologiyası formalaşmaqda idi.

[5] Əhməd bin Hənbəl, Əl-Müsnəd, Qahirə, n.i.y.; Cəssas, Əbu Bəkr Əhməd bin Mühəmməd bin İsmail. Əhkam əl-Quran, I- III, Beyrut, 1335 h.;

## QAYNAQIAR

1. İbn Səəd. Ət-Təbəqat əl-kübra. I-IX, Beyrut, 1978.
2. Ислам: енсиклопедическая словарь. М., 1991, 311 s.
3. С.М.Накиб Аль - Аттас, «Концепция обучения Ислама», Коала Лумпур, ISTAS,1990.-290с.
4. Yıldırım celal, Kaynaklarıyla İslam Hukuku, Ankara, III c, 434 s.
5. Zeydan Abdulkerim, İslam Hukukuna giriş, (tercume: Ali şafak), İstanbul: Kayıhan yayım evi, 1995, 605 s.
6. Сюкияйнен Л.Р., Мусульманское право и семейное законодательство стран Арабского Востока.- Мусульманское право, М.,1984.
7. Cəssas, Əbu Bəkr Əhməd bin Mühəmməd bin İsmail. Əhkam əl - Quran, I-III, Beyrut, 1335 h.;
8. Musa Mühəmməd Yusif. Əhkam əl-əhval əş-şəxsiyyə fi-l-fiqhi l-islam, Qahirə, 1958